**BAHAR MƏMMƏDOVA ( BƏRDƏLİ)**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**baharmemmed3@gmail.com**

# GÜLXANİ PƏNAHIN POEZİYASI MÜSTƏQİLLKK İLLƏRİNDƏ

**Xülasə**

Bahar Məmmədova məqalədə keçən əsrin 80-ci illərində ədəbiyyata gələn şair, nasir, alim Gülxani Pənahın poeziyasını tədqiqat obyekti olaraq götürüb. Onun, xüsusi olaraq müstəqillik illərində qələmə aldığı şeirlərini önə çəkib.Yəni şairin 20 yanvar faciəsiynən, Qarabağ hadisələriynən, Cənubi Azərbaycanla bağlı şeirlərini tədqiq etməyə çalışıb. Tədqiqatçı göstərib ki, Gülxaninin bu dövrdə "Bura vətəndir", "Qarabağ dərdi", "Dədə Şəmşir harayı", "Torpaq sənin vətənindir", "Yurd yanğısı" adlı kitabları çap olunub.

Gülxani Pənahın "20 yanvar gecəsi" , "Qarğış", "Dədə Şəmşir harayı", "Nə qalıb ki...", "Qayıt elə..." kimi vətənpərvərlik duyğyları ilə zəngin olan, böyük tərbiyəvi əhəmiyytiə malik şeirləri daha çox təhlil edilib. Həmçinin, B.Məmmədova göstərir ki, şair bu şeirlərində azadlıq üçün qurban gedən şəhidləri və azad olan Vətəni təsvir, tərənnüm edir.

Tədqiqatçı, həmçinin şairin yaradıcılığı haqqında məqalə yazan alimlərin fikirlərinə də istinad edib.Yəni filologiya üzrə fəlsəfə doktorları, eyni zamanda tanınmış şairlər Söhrab Tahir, Firuzə Məmmədli və Fikrət qocanın məqalələrindən yaradıcılıqla istifadə edib.

**Açar sözlər:** Gülxani Pənah, müstəqillik dövrü, Azərbaycan Ədəbiyyatı, Qarabağ, şeir, şəhidlik,vətən

Azərbaycan ədəbiyyatının zənginləşməsində, inkişafında, xüsusilə Müstəqillik dövrü ədəbiyyatının yaranmasında, formalaşmasında keçən əsrin 80-ci illər ədəbi nəslinin özünəməxsus böyük rolu, dəsti-xətti, fəaliyyəti vardı. Düzdür, ilk əvvəllər bu nəsil özündən əvvəlki ədəbi nəslin təsir dairəsindən çıxa bilməmişdi. Lakin son dönəmlər bu yer aydın görünməkdədir. Bu nəslin bir çox tanınmış nümayəndələri bu gün də istənilən mövzuda, janrda qələmini sınamaqdadır. O nəslin layiqli üzvülərindən biri olan şair, nasir, publisist, ədəbiyyatşunas Gülxani Pənahın yaradıcılıq diapozonu çox genişdir, əhatəlidir. Bir çox janrlarda əsərlər yazıb. Onun yaradıcılığının əsas və çox hissəsimüstəqillik dövrünə düşür. Aydındır ki, bu dövrün də özünə məxsus mövzu dairəsi, janr xüsusiyyətləri var: müstəqillik uğrunda mübarizə, 20 yanvar qırğını, Qarabağ müharibəsi, Xocalı faciyəsi, itirilmiş yurd yanğısı, şəhidlər və s. Yazar bu mövzularda - həm nəsrlə, həm nəzmlə, həm də publisistkanın imkanları çərçivəsində öz sözünü deyə bilmişdir. Nəşr etdirdiyi kitabların adı da bu mövzuları təsdiq və diktə edir: "Yurd yanğısı", "Dədə Şəmşir harayı", "Bura vətəndir", "Qarabağ dərdi", "Oğuz şəhidləri, itkiləri", "Torpaq sənin, vətən sənin..." və b.

"20 yanvar gecəsi" şerinə nəzər salaq, o gecənin fəlakətini şairin poetik təsvirində daha aydın görmüş olarıq:

Azərbaycan boğuldu qan içində o gecə...
Şəhidliyə qovuşdu oğullar neçə-neçə...
...Göylər qara geyindi,uşaq kimi ağladı...
Yağış ara vermədi,sellər kimi çağladı..
...Azərbaycan! Ana yurdum,gəl ağlama,qəm yemə!
Sən azadlıq istədin,əldə etdin qanınla!.. (1,12-13)

Şair bu şerində azadlıq üçün qurban gedən şəhidləri və azad olan vətəni təsvir, tərənnüm edir. "Sən azadlıq istədin, əldə etdin qanınla!" - deyir. Bu bir real həqiqət, faktdır ki, o gecə Bakının

girişində - Azərbaycanın ürəyinə gedən yolun üstündə insan bədənindən çəpər çəkilmişdi. Elə bir çəpər ki, onu tank, top da dağıda bilməmişdi. Nəticədə Bakı azad olmuşdu. Lakin bu insan selinin qurban getməsilə, şəhidlik zirvəsinə yüksəlməsilə baş vermişdi! Bir təskinliyimiz vardı ki, əgər vətən yaşayırsa, demək, o insanlar da ruhumuzda, qəlbimizdə, bir də ulu vətənin göylərində yaşayır və əbədi yaşayacaq!

Xalq şairi Söhrab Tahir Gülxaninin yaradıcılığından bəhs edərkən yazır: ”Gülxani Pənahın vətəninə sonsuz məhəbbətlə, qayğılarlarla yanaşan qaynar, alovlu bir ürəyi var. Onun ürəyinin odu, közü yaratdığı sənəd əsərlərindədir. Əsərlərində zaman-zaman təcavüzlərə məruz qalan, işğalçıların yeritdiyi siyasətlərin qurbanına çevrilən, onun acı faciələrini yaşayan xalqının xoşbəxt gələcəyinə böyük ümidlərlələ yaşayır” ( 2,4).

Müstəqillik illəri ədəbiyyatının, xüsusilə poeziyasının böyük vüsət almasının başlıca səbəbi, məqsədi dövrün ab-havasını vətənpərvərlik duyğularının tərənnümü ilə əbədiləşdirmək idi. Zənnimcə, ədəbiyyatımız bu istəyinə, məqsədinə nail olmuşdur. Bu ədəbiyyatı, əbədiyyəti yaradanlardan biri olaraq G.Pənah da gücü çatdığı, istedadının yetdiyi qədər poetik nümunələr yazmışdır. Xüsusilə onun Qarabağnan bağlı şeirləri diqqəti çəkir və kifayət qədərdir. Şairin bu səpkidə yazdığı “Talanıb”, “Qarğış”, “Əsgər anası”, “Azərbaycan”, “Ağlayır”, “Nə qalıb ki...” kimi poetik nümunələri ilə bərabər, “Dədə Şəmşir harayı”, “Xocalı”, “Özünə qayıt, türk oğlu...” “Bu mənim tariximdir”, “Yaddan çıxmaz Qarabağ” adlı poemaları da diqqətə layiqdir. Bu əsərlərdə Qarabağ itgisindən, onun talanmış, viran olmuş yerindən, yurdundan, təbiətindən, Aşıq Ələsgər, Dədə Şəmşir kimi tarixi şəxsiyyətlərindən bəhs edilir. G.Pənah həm Dədə Şəmşirin həyat və yaradıcılığından yazıb, onun şeirlərini təhlil, tədqiq edərək bir ədəbiyyatşünas kimi öz sözünü deyib, həm də ona bir poema həsr edib. Hər iki əsər- həm alim sözü, həm də şair sözü bir-birini çox gözəl tamamlayır və bir tarixi şəxsiyyətin bütöv obrazını yaradır.

Hər iki əsər haqqında yazan şair Fikrət Sadığın maraqlı fikirləri, mülahizələri “Dədə Şəmşir harayı” kitabının ön sözündə yer alıb: “Bu kitabda iki haray var:

Aşıq Şəmşir harayı bir haray- nəsr,
Dədə Şəmşir harayı bir haray-nəzm.
Bir haray üstünə gəl bir haray,
İki haray olmaz, fəryad olar!..

Buradakı haraylar bir-birini tamamlayır, bir-birinə çırpılır, bütöv olur, bu bütövlük də elə bütöv fəryaddır!”(3,3)

Düşmən tapdağında qalan Dədə Şəmşir ocağı indi yelin sovurduğu külə bənzəyir. Şairin fəryadı da elə bunun üçündür, axı külə dönən cənnətməkanlarımız çoxdur.

Növrağı dağıdıb pozana lənət,
Dözümü əyənə,yozana lənət,
Səfimə əl atıb pozana lənət...
Qarğışdan savayı nəyim qalıb ki...

Qoy çatsın göylərə,dağılsın ahım,
Mənim də varımdı göydə Allahım,
Üzümə açacaq bir gün sabahın,
Allahdan savayı nəyim qalıb ki...(4,144)

Şair öz fikirlərini ifadə edərkən xalq yaradıcılığından yetərincə bəhrələnib, yetərincə istifadə edib. Onun bayatıları bu günümüzün güzgüsüdür, - desək yanılmarıq. Bu dörd misralıq, yeddi hecalıq şeir bəndləri bitmiş bir fikri, düşüncəni əks etdirmək baxımından çox güclüdür, oxunaqlıdı, yadda qalandı:

Qara yellər əsdi,gəl,
Düşmən yolu kəsdi,gəl...
Hicran qırdı belimi,
Qayıt,oğul,Bəsti,gəl!

Qəmdir sənin qucağın,
Hər güncün,hər bucağın...
Oğlum əlimdən gedib,
Daha yanmaz ocağım! (1,130)

Gülxaninin yaradıcılığında yer alan bu səpkili bayatılar ən çox müharibə mövzusundadır.Ananın dilindən səslənən,çağrılan bayatılar elə ana qəlbinin harayı,ah-naləsidir. Sevə-sevə böyütdüyü oğlunu vətənə qurban verən Ananın gücü yalnız bayatı ilə onu oxşamağa çatır:

Bulud kəsib yolunu,
Tökür leysan, dolunu...
Sənə qıyan düşmənin,
Allah qırsın qolunu! (1,134)

"Əgər sənətkar öz poetik duyğularında mənsub olduğu millətin, xalqın istək və arzularını, fikir və ideyalarını bütün incəliklərlə əks etdirməyi bacarırsa, demək o xalqın qəlbinə yol tapan əsl sənətkardı"(2,5). Bu sətirlərin müəllifi, Xalq şairi Söhrab Tahir daha sonra G.Pənahın yaradıcılığı haqqında qeyd eləyir ki: "İrəliyə böyük ümidlərlə baxan şair bəzən ədalətsizlikdən üşənib dünyadan şikayətlənsə də, onun ümid və inamında Azərbaycanın şərəfli və xoşbəxt gələcəyinə inam böyükdür. O inanır ki, onun vətəni azadlığını, müstəqilliyini, bütövlüyünü tezliklə bərpa edəcək. Çünki xalqının gücünə, qüdrətinə inanır, əqlinə, zəkasına bələddir" (2,7).

Cənub mövzusunda da qələmini sınayan şairin bir çox şeirləri oxucuları üçün ərməğandır. "Araz", Tanınmış vətənpərvər müğənni Yaqub Zurufçuya həsr etdiyi "Nigaranlıq", "Rəhman, çalma, çalma belə", "Eyləmə xiffət", "Cənub küləyi", "O tay mənim, bu tay mənim and yerim", "Qızarmış üfüqün qana boyanıb", "Təbriz" kimi şeirləri vətəndən vətənə haraydı, səsdi, çağırışdı, sevgidi, ismarıcdı, göz yaşıdı, ürək yanğısıdı və s. Üzünü Araza tutub dərdini danışan lirik qəhrəman düşünür ki, "Gün gələcək, haqq yerini tapacaq! / Bənd-bərəni igidlərim açacaq.../ Yol-izini təmizlərsən, yuyarsan,/ Azadlığı onda sən də duyarsan!"

Savalana duman çökür
Bağrım başın söküb, tökür...
Ağlayıram hönkür, hönkür... (4,253)

Vətənpərvər, insanpərvər, yurdsevər şairin dağlar haqqında onlarca şeiri var, Bu şeirlər şairin həm doğulduğu ərazi, həm də tez-tez qonağı olduğu Kəlbəcərin təbiəti ilə bağlıdı. Şair düşünür və düşündürür, axarlı-baxarlı, həmişə türk tayfalarının məsgəni, qalası, səngəri olmuş bu dağlar, ilk yurd yerləri indi yağı düşmənin tapdağına necə dözür?

Nə baxırsan bu dağlara,
İçi qubar,yara,yara...
Gözlərində yaş giləsi,
Qayıt elə,oylaqlara.

Çəmən,oylaq səni gözlər,
Səninkidir yaylaq,düzlər,

Yaş tökməsin qara gözlər,
Qayıt elə,oylaqlara ! (4,254)

“Qüdrətdən səngərli, qalalı dağlar” Gülxaninin poeziyasında məhz bu ab-havada köklənib, təsvir, tərənnüm olunur.. Bir vaxtlar Aşıq Ələsgərin, Səməd Vurğunun, Dədə Şəmşirin vəsf etdiyi, gülündən, çiçəyindən, böcəyindən bəhs etdiyi Kəlbəcər dağları indi əsirlikdədir. Şairin lirik “Mən”i bunu heç cür qəbul edə bilmir.

Filologiya üzrə fəlsəfə doktoru, tanınmış şairə Firuzə Məmmədlinin G.Pənah haqqında maraqlı fikirləri var:

“Onun mövzuları çox şaxəlidir – şaxlı-budaqlı tut ağacını xatırladır. Məhsuldardır - şeirlərinin hər biri bir tam halında meyvəsinin bolluğundan başını aşağı sallamış budaqlara bənzəyir. Həyalıdır - hər şeiri oxuyanda başının ortasına sürüşmüş örpəyini irəli - alnına çəkməyə çalışan gəlinlər yada düşər...” (5,3)

Daha sonra alim qeyd eləyir ki: “Gülxaninin poetik axtarışları çox vaxt qadın taleyinin zaman, məkan, qayğı, dözüm, ağır zəhmət prizmalarında arıtlanır” (5,4)

F.Məmmədlinin fikrincə bütün bunlara səbəb bu şeirlərin hər birinin öz talehi, öz həyatı, öz xarekterinin olmasıdır, bu da şair üçün vacib amildir. “Vətən” şerində olduğu kimi:

Vədəsiz soyuqdan, şaxta borandan,
Bağında çiçəklər solmasın, vətən,-

Deyə düşünən şair zirvəsini qar alan dağların həsrətini çəkir, Çünki bu dağları hələki düşmən əsir götürüb, onu yalnız uzaqdan seyr eyləyib vəsv edə bilir:

Gözlərində həsrət, qubar kölgəsi,
Ana yurdum, gözəlliyin göz kəsib,
Doğma yurdu məngirləyib özgəsi,
Dağ çəkibdir bu ayrılıq köksümə! ( 6,111)

“Gülxaninin şeirlərində vətənə, torpağa ehtiram, onun igidinə, şəhidinə olan hörmət və məhəbbət deyim tərzinə görə oxucunu cəlb edir. Bəzi şeirlərində balası düşmənlə üzbəüz dayanmış ananın çəkdiyi agrı-acılar, yuxusuz gecələrin verdiyi əzablar qəlbimizi parçalayır, bəzi şeirlərində isə əlində silah düşmənlə vuruşa hazır bir cəngavərin səsini duyuruq, qəlbimiz riqqətə gəlir!” (7,5).

Beləliklə, G.Pənahın poeziyasında Vətənin bütöv obrazı var. Müstəqillik uğrunda mübarizəni, Qarabağ hadisələrini əsərlərində yaşadan Gülxani bu vətənin əsrarəngiz təbiətini, ərazisini, zəhmətkeş, duyğusal insanlarını, qorxmaz, sarsılmaz igidlərini, mələksima xanım-xatın analarını, fidan balalarını yetərincə vəsf edə bilib. İnanırıq ki, öz qələminə, əqidəsinə, vətəninə, elinə, obasına sadiq olan şairin bu səpkili şeirləri hələ çox yazılacaq və oxunacaq.

## Ədəbiyyat

**1.** Gülxani Pənah.Yurd yanğısı. Bakı, “Şur”, 1998, 160 s.
**2.**Söhrab Tahir.Ön söz. Gülxani Pənah, Bura vətəndir. Bakı, “Azər”, 2001, 400 s.
**3.** Fikrət Sadıq. Ön söz. Gülxani Pənah, Dədə Şəmşir harayı, Bakı, UniPrint, 2007, 320 s.
**4.**Gülxani Pənah. Dədə Şəmşir harayı. Bakı, UniPrint, 2007, 320 s.
**5.**Firuzə Məmmədli. Qadın–şair ürəyi. Gülxani Pənah. Qarabağ dərdi, “Çinar-çap”, 2005, 400 s.
**6.**Gülxani Pənah. Torpaq sənin, vətən sənin... Bakı, UniPrint, 2015, 438 s.
**7.**Fikrət Qoca. Ön söz. Gülxani Pənah. Torpaq sənin,vətən sənin... Bakı, UniPrint,2015,438 s.

**Бахар Мамедова (Бардали)**

**Поэзия Гюльхани Панах в годы независимости**
**Резюме**

В статье исследуется поэзия поэта, ученого, прозаика Гюльхани Панах, которая, публикуется с 80-годов прошлого столетия. В основном анализированы стихи поэтессы посвященные событиям 20 января, Карабахской войне, Южному Азербайджану поэтические образцы написанные в годы независимости. За эти годы, в период независимости были изданы такие поэтические сборники автора как «Это Родина», «Карабахское горе», «Зов Деде Шемшира», «Эта земля-Родина твоя», «Боль о Родине».

Анализированы такие стихи поэтессы, как, «Ночь 20 января», «Проклятье», «Зов Деде Шемшира», «Что осталось…», «Вернись..». Исследователь, характеризует эти образцы как патриотические стихи с огромным воспитательным значением, в которых созданы образы шехидов, погибших за Родину, и освобожденной родной земли.

Бахар Мамедова также изучила литературно-критические материалы, статьи, книги о творчестве Гюльхани Панах. Это статьи Сохраб Тахира, Фирузы Мамедли, Фикрат Годжи.

**Ключевые слова:** Гюльхани Панах, период независимости, литература Азербайджана, Карабах, стих, шехидство, Родина

**Bahar Mammedova (Bardali)**

**Poetry of Gulkhani Panah in the years of independence**
**Summary**

The article explores the poetry of a poet, scholar, and prose writer Gulkhani Panah, which has been published since the 1980s. Poetry poems devoted to the events of January 20, the Karabakh war, South Azerbaijan and poetic samples written in the years of independence are mainly analyzed. Over the years, during the period of independence, such poetry collections of the author as “This is the Motherland”, “The Karabakh Mountain”, “The Call of the Grandfather of Shemshir”, “This Earth — Your Motherland”, “The Pain of the Motherland” were published.

Such poems of the poetess as “Night of January 20”, “Curse”, “Call of Deda Shemshir”, “What is left ...”, “Come back ..” are analyzed. The researcher describes these patterns as patriotic poems with a great educational value, in which images of martyrs who died for their homeland and liberated native land are created.

Bahar Mammedova also studied literary-critical materials, articles, books about the work of Gulkhani Panakh. These are the articles of Sohrab Tahir, Firuza Mammadli, Fikrat Goja.

**Keywords:** Gulkhani Panah, independence period, literature of Azerbaijan, Karabakh, verse, martyr, Motherland

Redaksiyaya daxil olma tarixi: 11.05.2019
Çapa qəbul olunma tarixi: 25.06.2019
F'əlsəfə elmləri doktoru Rahid Ulusel tərəfindən çapa tövsiyə olunmuşdur